**M.Ə.Əliyev**
***dosent, Azərbaycan Dövlət İqtisad Universiteti***
**musrevan.aliyev@mail.ru**
**F.F.Babayev**
***magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti***
**babayev.farhad@internet.ru**

*Məqalə redaksiyaya daxil olub: 08.04.23*
*The article was received by editorial board on: 08.04.23*
*Статья принята к печати: 08.04.23*

# QARABAĞ İQTİSADİ RAYONUNDA TURİZM POTENSİALI

**Xülasə**

*Təqdim etdiyimiz məqalədə Qarabağ iqtisadi rayonunda turizm potensialından bəhs edilir. Qarabağ regionunun zəngin təbiəti, flora və faunası, eləcə də qədim tarixi abidələrin əsasında turizmin inkişafı üçün böyük potensiala malik olduğunu göstərir. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının, Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr- Xocalıdakı dolmenlər, Xankəndidəki kromlexlərin, Gənçəsər (Qanzasar), Alban-Amaras, Yelisey, Xudavəng, Ağoğlan kimi tarixi məbədləırin turizm imkanları xüsusilə genişdir.*

*27 sentyabr 2020-ci ildə başlanan 44 gün davam etmiş Vətən müharibəsi, eləcə də pandemiya dönəmində ölkəmizin bir çox sahələrində olduğu kimi qeyri-neft sektorunda da bir sıra çətinliklər yaratdı. Bu dövrdə başqa sahələr kimi turizm şirkətlərində ciddi problemlər yarandı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun şücaəti ilə Qarabağın işğaldan azad olunması, ölkəmizdə pandemiya ilə aparılan davamlı mübarizə artıq bu sahənin inkişafında yeni imkanlar açdı. Qarabağ iqtisadi rayonunun zəngin təbiəti, dağları, dərələri, qoruqları və s. var. Bu da turizmin müxtəlif sahələrinin inkişafı üçün böyük potensial deməkdir. Bu potensialı şərtləndirən amillərdən biri bu ərazilərin böyük rekreasiya əhəmiyyətinin olmasıdır.*

***Açar sözlər**: turizm, ekoturizm, turizm potensialı, rekreasiya, turizm ehtiyatları.*

## GİRİŞ

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi Azərbaycan xalqının etnogenezində, tarixində və mədəniyyətində mühüm rol oynamış bölgələrdən biridir. Təbii relyefinə görə iki hissədən - düzənlik və dağlıq (yuxarı) hissələrdən ibarət olan Qarabağ bölgəsi coğrafi cəhətdən 1923-1991-ci illərdə mövcud olmuş inzibati vahidin – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisindən (4.400 kv.km) bir neçə dəfə böyükdür. Belə ki, 1920-ci ilin sonlarında bolşeviklər tərəfindən Ermənistana verilmiş Zəngəzur diyarı da tarixi Qarabağ vilayətinin qərb hissəsini təşkil edir. Tarixi Qarabağ bölgəsi bəşər sivilizasiyasının təşəkkül tapdığı ərazilərdən biridir. Qarabağ ərazisində paleolit dövrünə aid Azıx, Tağlar, Zar mağara düşərgələri, eneolit dövrünə aid Çalağantəpə, Leylatəpə və s. abidələr, ilk tunc dövrünə aid Xankəndi, Üçoğlan, Göytəpə, Qarahacılı abidələri, orta tunc və son tunc dövrlərinə aid Üzərliktəpə, Xocalı, Qarabulaq abidələri, habelə antik dövrə və ilk orta əsrlərə aid Covurqala və digər çoxsaylı abidələr aşkar edilmişdir. 1960-cı ildə Azərbaycan arxeoloqları tərəfindən aşkar olunmuş Azıx mağarasında Quruçay mədəniyyəti, Aşel mədəniyyəti və Mustye mədəniyyəti dövründə yaşayış olduğu müəyyən edilmişdir. Azərbaycan arxeoloqlarının hələ Sovet dövründə aşkara çıxardıqları materiallar Qarabağ zonasının Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edir.

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən, mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii-coğrafı şərait, şirin su qaynaqlarının, bitki və heyvanlar

aləminin zənginliyi, Azıx mağarası kimi təbii mağaraların olması hələ qədim dövrlərdən burada ibtidai insanların məskən salmasına şərait yaratmışdır. Qarabağda Şuşa kimi qədim tarixə malik şəhər, Xocalı, Xankəndi, Xocavənd kimi qədim yaşayış məskənləri, Ağdam, Ağdərə, Hadrud və digər inkişaf etmiş rayonlar vardır.

**Qarabağ iqtisadi rayonunda turizm potensialı**

Qarabağ və erməni işğalından azad olunmuş digər yeddi rayon müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından tarixən ölkəmizin digər regionları ilə inteqrativ əlaqələrə malik olub, müasir sənayeyə, çoxcəhətli kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək inkişaf etmiş iqtisadi regionlarından biri olmuşdur. 30 il öncəsində də bu bölgənin coğrafi mövqeyi, təbii sərvətləri və insan resursları Qarabağ iqtisadiyyatının inkişafında mühüm rol oynayıb. O vaxtlar burada yaradılmış nəqliyyat və infrastruktur şəraiti ilə yanaşı, mövcud olan təbii ehtiyatlar energetika, dağ-mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi, meşə təsərrüfatı, balıqçılıq və turizm kimi sahələrdə mühüm layihələr həyata keçirməyə imkan verirdi [3]. 1988-ci ilədək, yəni SSRİ-nin çöküşünədək olan dövrdə Dağlıq Qarabağ iqtisadi rayonu məhz bu sərvətlər hesabına mühüm inkişaf göstəriciləri əldə etmiş və bu iqtisadi nəticələr birbaşa olaraq bölgədə məskunlaşmış əhalinin yaşayış səviyyəsində və məşğulluğunda özünü göstərmişdi. Sovet dövründə Qarabağ Azərbaycanın Azərbaycanın ümumi əhalisinin təxminən 2 faizini, ərazisinin 5 faizini təşkil edən Qarabağ respublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarının 5 faizini, sənaye məhsullarının təxminən 3 faizini istehsal edirdi. Həmin dövrün statistikasına nəzər salsaq, burada bir sıra məhsulların istehsalında respublika əhəmiyyətli nəticələr əldə olunub. Tarixən Qarabağ əhalisinin mənimsədiyi məşğuliyyət növləri və toplanan təcrübə burada əsas rol oynayıb. Belə ki, təkcə kənd təsərrüfatı üzrə baxsaq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, pambıqçılıq və tütünçülüklə yanaşı ətlik və südlük heyvandarlıq məhsullarının istehsalında mühüm göstəricilərin əldə olunduğunu görməkdəyik. Sovet dönəmində Azərbaycanda çox inkişaf etdirilən üzüm plantasiyaları Qarabağın da bütün rayonlarında, xüsusən, Fizuli və Cəbrayılda var idi. Həmçinin Qubadlı, Laçın, Kəlbəcər və Zəngilanda təbii otlaqların zənginliyi heyvandarlığın da inkişafına təkan vermişdir. Əlverişli təbii-iqlim şəraiti arıçılığın da inkişafına şərait yaradıb. Bölgədəki geniş yayılmış tut bağları ipəkçiliyin və baramaçılığın inkişafına səbəb olmuşdu. O dövrdə Qarabağın sənayesi, əsasən, yerli istehsal olan kənd təsərrüfatı xammalına əsaslanırdı. Sənayenin strukturunda o dövrün regional inkişaf prioritelərinə uyğun olaraq yüngül və yeyinti sənayesi aparıcı sahələr olmuşdu. Deməк olar ki, Qarabağın bütün rayonlarında, xüsusən Ağdam, Xankəndi, Hadrut və Şuşada şərabçılıq, müxtəlif meyvə-tərəvəz konserv sənayesi, unüyütmə, çörəkbişirmə, toxuculuq, tikiş, ipəkçilik, xalçaçılıq, ayaqqabı, gön-dəri sənayesi müəəsisələri fəaliyət göstərib, Şuşada unikal musiqi alətləri fabriki olub.

Eləcə də emal sənayesi və sənətkarlıqda, xüsusən dünyaca məşhur olan xalçaçılıqda Qarabağ adı hələ o dövrdə dünya markası halına gəlmişdi. Bütün bu və digər sahələrlə yanaşı Qarabağ özünün təkrarolunmaz turizm ehtiyatları və kurort-sanatoriya müəssisələri, qorunan təbii-rekreasiya məkanları ilə səyahətçilərin də diqqət mərkəzində olub [1].

Qarabağ turizm baxımından zəngin təbii ehtiyatlara və unikal iqlim şəraitinə malikdir [6]. Ərazinin çox hissəsini Qarabağ silsiləsi tutur. Hər tərəfdən baxdıqda qala kimi yüksəklik mövqeyə malik olan Şuşa yaylası və onun ətrafındakı Daşaltı kanyonu ecazkar mənzərəyə malikdir. Qarabağın iqlimi də çox müxtəlifdir. Regionun dağətəyi ərazilərində quru subtropik, dağlıq ərazilərində isə mülayim dağ iqlimi vardır. Yağıntın miqdarı illki olaraq 300-800 mm. arasında dəyişir. İşğaldan öncə bölgədə suvarma və dəmyə əkinçiliyi, bağçılıq və heyvandarlıq yaxşı inkişaf etmişdi. Ərazidən bolsulu Tərtərçay, Xaçınçay, Qarqarçay, Köndələnçay, Qunıçay və digər kiçik çaylar axır. Tərtər çayı üzərindəki Sərsəng su anbarı suvarma və enerji üçün böyük əhəmiyyətə malikdir. Qarabağın ən mühüm təbii sərvətlərindən biri meşələrdir. Burada Azərbaycanın çox güclü meşə ehtiyatları vardır. Palıd, vələs, fısdıq meşələri ərazidə ağac emalı sənayesinin inkişaf etdirilməsi üçün əlverişlidir. İşgal dövündə ermənilər digər sərvətlərimiz kimi, Qarabağ meşələrindəki bu nadir və qiymətli ağac növlərini də talayırdılar. Qarabağın təbii sərvətləri içərisində Kəlbəcərin və Zəngilanın qızıl ehtiyatları, polimetal filiz yataqları, müxtəlif

tikinti materialları, çox böyük ehtiyata malik olan mərmər yataqlarını, civə, əhəngdaşı, sement xammalı, qum, çmqıl və sair göstərmək olar ki, bütün bunlar da, işğal dövründə ermənilər tərəfindən talanmışdı [6].

Şuşa şəhəri Azərbaycanın ən məşhur mədəniyyət mərkəzlərindən biridir. Bu şəhər təkrarsız gözəlliyə malik olmaqla həm də təbii qala formasındadır. Şuşa yaxınlığındakı Turşsu, Şırlan və digər mineral su çox sayda turisti özünə cəlb edib. Eyni zamanda Şuşa şəhəri yaxınlığındakı İsa bulağı, Şuşalıların o zamankı Qarabağa gəlmiş turistlərin ən sevimli istirahət yeri olub. Azərbaycan musiqisinin beşiyi Şuşa böyük sənət ustaları Üzeyir Hacıbəyov və Bülbülün vətənidir. O zamanlar Şuşada məscid, diyarşünaslıq muzeyi, musiqi məktəbi, musiqi alətləri fabriki,pedaqoji institut, sanatoriyalar, turizm mərkəzi, böyük şair Vaqifin, Nəvvabın məzar abidələri, Şuşanın qala divarları, xan qızı Natəvanın, Mehmandarovun evi və bir sıra başqa abidələr vardı.

Musiqi beşiyi Qarabağ özünün qonaqpərvərliyi ilə həmişə seçilən məkan olub. Qədim dövr və orta əsrlərdə Azərbaycana səyahət etmiş Türk, Avropa, rus və ərəb səyyahları qədim İpək yolu üzərindəki bu dilbər güşənin ecazkar təbiətindən yazmış, insanların qonaqpərvərliyindən dərin təəssüratlar almışlar [2]. Qarabağın müasir ifadə ilə desək, bir turizm mərkəzi kimi tanınması isə hələ XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın neft ölkəsi kimi inkişafı ilə buraya xarici kapitalın axınından başlayır. O zamandan başlayaraq Cənubi Qafqazın görməli yerləri ilə tanış olmaq istəyən bu əcnəbilər üçün Qarabağın gözəlliyi də cazibə elementi olub. Sonrakı vaxtlarda, Azərbaycanda Sovet hakimiyyəti dövründə Qarabağ respublikamızın ən çox seçilən turizm destinasiyalarından biri olub, ittifaq və xarici ölkə mənşəli turistlər üçün sevimli tanışlıq, istirahət, müalicə, ekoturizm və əyləncə məzmunlu turlara ev sahibliyi edib. Çox da uzaq olmayan bu tarixi dövrdə istər Şuşa, istərsə də bütün Qarabağ bölgəsində gəlmə turizm üzrə ciddi inkişaf nəticələri qeydə alınıb.

Hələ XX əsrin 30-cu illərində Şuşada kurort məqsədilə istirahət evi, daha sonrakı dövrlərdə panisonat və sanatoriya fəaliyyət göstərib. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi “Cıdır düzü” buraya səyahətə gələnlərin sevimli yeri olub. Eləcə də Xankəndi, Ağdam, Kəlbəcər ərazilərində də turistlərin mənalı asudə vaxt keçiməları üçün imkanlar var idi. Ağdamdakı çörək muzeyi, buradakı məscid turizm baxımından çox dəyərli olub. Bu dövrdə mövcud olan sosial-mədəni infrastruktur da o zamankı turistlərin tələbatına uyğun olaraq yaradılıb və bölgənin turizm-rekreasya potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb. Ötən əsrin 70-80-ci illərində isə bütün Azərbaycanda olduğu kimi onun turizm incisi Qarabağda da turizmin inkişafı ən yüksək səviyyəyə çatıb, xeyli sayda kurort-sanatoriya, mədəniyyət müəssisələri, asudə vaxt mərkəzləri fəaliyyət göstərib, yerləşdirmə müəssisərində çox sayda yataq yerləri mövcud olub. Belə ki, 1987-ci ildə Azərbaycana xarici ölkələrdən gəlmiş 50 min, SSRİ-nin müxtəlif bölgələrindən gəlmiş 250 min turistin və yerli turizm-ekskursiya bürolarının təşkil etdikləri turlara qatılan 2,5 milyon nəfər daxili turistin mühüm bir hissəsi məhz Qarabağda olub. Ancaq Ermənistanın 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində təkcə Qarabağda deyil, eyni zamanda buradan qaçqın salınmış insanların ölkəmizin kurort-sanatoriya müəssisələrində yerləşdirilməsi ilə bütün Azərbaycanda daxili və gəlmə turizmə ciddi zərərlər dəydi [3].

Hazırda Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərdə turizm xidmətlərinin inkişaf etdirilməsi üçün dövlət strategiyası hazırlanır. Qarabağ bölgəsində turizm məhsullarının, turizm infrastrukturunun və eləcə də sosial-mədəni turizm xidmətlərinin inkişaf etdirilməsindən əvvəl bir sıra komponentlər nəzərdən keçirilməlidir. İlk öncə bu bölgələrdə təhlükəsizlik xidmətləri təmin olunmalıdır. Həmçinin əhalinin geriyə qayıdışı və yaşayışı, bu yerlərdə infrastruktur bərpa edilməlidir və bunun üçün bura investisiyalar cəlb edilməlidir.

İşğaldan azad edilmiş bölgələrdə turizmin bütün sahələrini inkişaf etdirmək olar. Təkcə Zəngilanda çoxlu sayda termal su mənbələrinin olması burada müalicəvi turizm xidmətlərini inkişaf etdirməyə əsas verir. Burada, həmçinin dini və tarixi abidələr və çinar meşələri salmaq üçün imkanlar var. Qarabağ təbiətinin zənginliyinə görə onun gələcəyinin ekoturizmə bağlı olması daha məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, əgər məharətlə istifadə olunsa, Qarabağı dünyada ekoloji turizm məkanlarından birinə çevrilməsi qaçılmazdır.

Qarabağ bölgəsində Xudafərin körpüsü və Azıx mağarası daha sıx ziyarət edilən turist marşrutu ola bilər. Tarixi - mədəni abidələrin xeyli hissəsi dağıdılsa da, onların yenidən bərpa olunmasından sonra bu ərazilərdə turların təşkil edilməsi mümkün olacaq. İşğal olunmuş ərazilərdə yeni turizm marşrutları da nəzərdə tutulub. İlk istiqamət Füzuli-Şuşa-Xocavənd-Laçındır.

İkinci istiqamət Cəbrayıl-Füzuli-Zəngilan, üçüncü istiqamət Zəngilan-Qubadlı, dördüncü istiqamət Kəlbəcər-Laçın, beşinci istiqamət isə Bərdə-Ağdamdır. Bu regionların hər biri özünəməxsus turizm potensialına malikdir, məsələn, təbiəti, mədəni-tarixi abidələri ilə Qarabağın incisi olan Şuşada müxtəlif tədbirlər, festivallar keçirmək mümkündür. Laçın-Kəlbəcər istiqamətində təbiət, mədəniyyət, qış və həmçinin sağlamlıq xidmətləri turizm imkanları ilə zəngindir. Qubadlı və Zəngilan bölgəsində təbiət və mədəniyyət istiqaməti, Füzuli, Ağdam, Cəbrayıl bölgələrində mədəniyyətlə yanaşı, həm də erməni işğalının acı nəticələrini əyani şəkildə göstərmək imkanları vardır. Bu yerlərdə açıq muzeylərdə orada işğalın nəticələrini göstərilməsi üçün bəzi tikililər dağıdılmış halda saxlanılacaq ki, həm daxili, həm də xarici auditoriya üçün erməni vandalizmi nümayiş olunsun.

Ölkənin Strateji Yol Xəritəsində ekoturizmə önəm verilməsi Qarabağ bölgəsinin də ekoturizm çərçivəsində dəyərləndirilməsini qaçılmaz edir. Qarabağ bölgəsi sahib olduğu yüksək potensialı istifadə edərək aşağıda qeyd olunan ekoturizm fəaliyyətlərini həyata keçirə bilər:

1. Mağara turizmi: Azərbaycanın cənub-qərbində yerləşən Xocavənd yaxınlığındakı Azıx mağarası dünyada ən qədim insan məskənlərindən biridir. Burada ilk insanların Paleolit dövründə məskunlaşdığı güman edilir. Bu da ekoturizm çərçivəsində istifadə edilən mağara turizminin inkişaf etdirilməsinə əsas verir.

2. Termal fəaliyyətlər: Qarabağ bölgəsinin zəngin termal mənbələrinin olması ekoturizm çərçivəsində istifadə ediləcək əsas resurslardandır. Bu da günümüzdə təbiətdə vaxt keçirmək ilə bərabər, öz sağlamlığını düşünən turistlərin bu destinasiyaya cəlb edilməsində mühüm rol oynayacaq.

3. Dağ turizmi: Qarabağ bölgəsinin relyefinin əsasən dağlıq olması bu turizm növünün inkişaf etdirilməsi üçün əsas verir. Dağ turizmi ekoturizm çərçivəsində uğurlu bir şəkildə tətbiq ediləcək və destinasiyanı daha çəkici edəcək vacib turizm növləri içində ən üst sıradadır.

4. Aqroturizm: Bu turizm növünün inkişafı gələcəkdə bölgədə yaşayacaq əhalinin sosial rifahını artıracaq, bölgə əhalisinin mədəniyyətinin yaşadılmasına və tanıdılmasına səbəb olacaq.

5. Trekking: Dağlıq hissələrdə və daha çox qrup şəklində həyata keçiriləcək trekking fəaliyyətləri ekoturizm çərçivəsində daha çox turistin bölgəyə çəkilməsinə səbəb olacaq.

6. Botanika turizmi: Qarabağ bölgəsinin endemik və nadir bitkilərlə zəngin olması bu turizm növünün inkişafına və təbiətdə daha çox vaxt keçirmək istəyən turistlərin bölgəyə cəlb edilməsinə şərait yaradır. Eyni zamanda ekoturizm çərçivəsində velosiped turları, atçılıq, inanc turizmi, mədəni-tarixi yerlərin turistlərə tanıdılması və Qarabağ bölgəsinin özünəməxsus mədəniyyətinin ziyarətçilərə öyrədilməsi həyata keçirilərək bu bölgənin turizm destinasiyası olaraq digər destinasiyalar qarşısında rəqabətdə önə keçməsinə və turizm destinasiyası olaraq turizm məhsullarının diversifikasiyasına səbəb ola bilər.

Turizmdə ən çox motivasiya təbii guşələrə maraq olduğu üçün bu, Şuşanın ön plana çıxmasına imkan verir. Şuşanın tarixi və mədəni potensialı turizm xidmətlərini burada inkişaf etdirilməsinin əsas amillərdən birinə çevrilib, çünki:

1. Qeyd olunduğu kimi mədəni və tarixi abidələrlə tanışlıq bura turistlərin cəlb olunması üçün ən güclü turist motivasiyasıdır;

2. Tarixi və mədəni irs obyektləri mənfəət qazana bilən və iqtisadi inkişafa əhəmiyyətli dərəcədə təsir göstərə bilən mühüm bir sərvətdir;

3. Bölgənin müsbət imicini yaradır, turizm arenasında liderliyin mənimsənilməsinin təsirli vasitəsi kimi istifadə olunan tarixi və mədəni irsə "brend" kimi yanaşılmasını təmin edir. Şuşanın ərazisi dağlıq sahə olduğuna görə burada xizəksürmə və eləcə də snowbord üçün münasib qarlı şərait yaradıla bilər.

İşğal sonrası Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb olunması qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın doğma yurd həsrəti çəkən Qarabağ sakinlərinin, onların yaxın qohum-əqrabalarının, müxtəlif humanitar missiyalar həyata keçirən beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri digər işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir. Turizm növlərinə gəldikdə, Əvvələr, yəni sovet dönəmində Şuşa əsasən yay istirahət zonası olub, buradakı pansionat və fərdi evlərdə çox sayda şəhərli turislər yerləşirdi. Ancaq şübhəsiz, 8 noyabr - Şuşanın işğaldan azad olunması günü [5] tarixi turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Bu tarixi gün ölkəmizdə fəayliyyət göstərən turoperatorlar üçün çox dəyərli və simvolik turzəflər hazırlamağa imkan verəcək. Belə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Bu marşrutun cazibə elementləri kimi insanları heyrətə salacaq təkcə təbiət və relyef gözəllikləri deyildir. Bakı-Şuşa istiqamətində ilk səfərə çıxanlar, xüsusən, diplomatlar və xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə dağıdılmış insan məskənlərini, korlanmış ekosistemi, dağıdılmış məzarlıqları və eləcə də daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq, foto-video həvəskarları üçün yeni bir gizli dünya açılacaq. Qarabağın azadlığı uğrunda həlledici döyüşlərin aparıldığı, Azərbaycan Ordusunun yüksək dəqiqliklə düşmənə öldürücü zərbələr endirdiyi nöqtələri görmək isə daha yaddaqalan olacaq. Bu marşrutlar Suqovuşandan Xankəndinə, işğaldan ilk azad olunmuş Cəbrayıldan Kəlbəcərədək çox geniş bir ərazidə çox zəngin informativ bir resursa sahib olacaq. Xarici jurnalistlər, eləcə də bütün əcnəbi turistlər işğaldan miras qalmış şəhər və kəndləri gördükcə bu onlarda ermənilərin gerçək xarakteri haqda ən real təsəvvür yaradacaq. Onda bütün dünya biləcək ki, faşizm ruhlu bu insanlar istədiyi vaxt sıx məskunlaşdıqları Los-Ancelos, Marsel, Beyrut, Rostov kimi şəhərlərdə də hər an belə izlər qoyub getməyə hazırdılar.

Hazırda Heydər Əliyev Fondu tərəfindən Ağdam məscidində ciddi bərpa-restavrasiya işləri aparılır. 14 fevral 2022-ci ildə məscidi növbəti dəfə ziyarət edən ölkə başçısı bu məsələ ilə bağlı qeyd etmişdir ki, "Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlayıb. Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür [2, s.187].

Regional səviyyədə turizmin və sahibkarlıq şəbəkəsinin genişləndirilməsi məqsədi ilə bir sıra prioritetlər müəyyənləşdirilmişdir ki, onları aşağıdakı kimi qruplaşdıra bilərik [4., s.81-82]:

- regionlarda yerli və xarici turistlərin cəlb olunmasında daha optimallığa nail olunması üçün sağlamlıq turizm obyektlərinin restrukturizasiyası və istifadəyə verilməsi;
- xüsusən də dağlıq ərazilərdə qış turizmi sahibkarlığının inkişaf etdirilməsi və müvafiq infrastrukturla təmin edilməsi.
- mədəni-tarixi xarakterli abidələr üzrə turizm sahibkarlığının dəstəklənməsi. Bu aspektdə dini turizmin də rolunu xüsusilə vurğulamaq lazımdır. Belə bir prioritetin qarşıya qoyulması hesab edirik ki, dövlətin əsas tədbirlərindən hesab olunur;
- biznes və işgüzar turizm üzrə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi. Nəzərə almaq lazımdır ki, məhz bu turizm sektorunun inkişafında otellərin rolu olduqca böyükdür. Geniş əraziyə nail olunma, zəngin mətbəxi və böyük konfrans zallarının olması işgüzar və biznes əhəmiyyətli turizmin dəstəklənməsində vacib amillərdən hesab olunur. Ona görə də regional miqyasda otellər şəbəkəsinin inkişaf etdirilməsi məqsədi ilə dövlət səviyyəsində ayrıca proqramın qəbul edilməsinə ehtiyac vardır;
- kənd turizminin və ekoturizm sahibkarlıq fəaliyyətinin inkişafı məqsədi ilə xidmət sahələrinin və infrastrukturun təmin edilməsi.

Hazırda ölkəmizdə turizm sənayesinin inkişaf etdirilməsində həm qardaş Türkiyə təcrübəsindən, həm də digər dünya ölkələrinin təcrübəsindən geniş istifadə edilir. Beynəlxalq təcrübədən bəhrələnərək respublikamızda, xüsusilə də, işğaldan azad olunmuş ərazilərimizdə turizm sektorunun inkişafına nail olmaq mümkündür.

**NƏTİCƏ**

Məqalədə Qarabağ iqtisadi rayonunda turizm potensialı təhlil edilmiş və belə nəticəyə gəlmək olar ki, Qarabağ iqtisadi rayonunda turizmin inkişafı üçün böyük potensial mövcuddur. Qarabağın təbii-coğrafi şəraiti, zəngin tarixi, maddi-mədəniyyət nümunələri, milli mətbəxi və s. burada turizmin müxtəlif sahələrinin inkişafı üçün əlverişlidir. Aparılan təhlillər göstərir ki, turizmin müxtəlif sahələrinin bu iqtisadi rayonda inkişafı həm iqtisadi baxımdan, həm də ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsi baxımından xalqımıza böyük mənfəət qazandıracaqdır.

Qarabağın bir neçə turizm növünün - ekoloji, dağ, qış, ov, sağlamlıq turizminin inkişafı üçün böyük imkanları var. Qədim tarixi, mətbəxi, tarixi-mədəni və dini abidələri, qədim sarayları, körpüləri, meşələri, şəlalələri və s. ilə Azərbaycanın bu bölgəsinin unikal flora və faunası - görməli yerləri turistləri cəlb edəcək. Təbii sərvətlərlə zəngin olan Qarabağda müxtəlif növ ekstremal turizm, aqroturizm, yaşıl turizm təşkil etmək mümkündür.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Hüseynov Y.Qarabağ, Bakı -2018, 336 s.

**2.** Hüseynov İ.H İşğaldan azad olunmuş ərazilərimizdə turizmin bərpası. //“Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 5 may, 2022-ci il, s.185-190

**3.** Məmmədov J.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Dərs vəsaiti. Bakı- 2010

**4.** Orucəliyeva B.Ə. Regionun turizm cəlbediciliyinin qiymətləndirilməsi. Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər. Respublika Elmi Konfransının materialları Sumqayıt-2021, N-2.s.84-88

**5.** https://azertag.az

**6.** https://www.trtworld.com

**7.** http://thelondonpost.net



**M.A.Aliyev**

*associate professor, Azerbaijan State University of Economics*

**F.F.Babayev**

*master student, Azerbaijan State Economic University*


## Tourism potential in Karabakh economic region


**Abstract**

*The article we presented talks about the potential of tourism in the Karabakh economic region. It shows that the Karabakh region has great potential for the development of tourism based on its rich nature, flora and fauna, as well as ancient historical monuments. Azikh cave, which is one of the oldest settlements in the world, ancient stone monuments discovered in the mountainous and plains of Karabakh - dolmens in Khojaly, cromlechs in Khankendi, historical temples such as Ganchesar (Ganzasar), Alban-Amaras, Yelisey, Khudaveng, Agoglan, have particularly wide tourism opportunities.*

*The Patriotic War, which started on September 27, 2020 and lasted for 44 days, created a number of difficulties in the non-oil sector as well as in many areas of our country during the pandemic. During this period, tourism companies, like other sectors, had serious problems. The liberation of Karabakh from occupation by the valor of our glorious army under the leadership*

*of the President of Azerbaijan, Commander-in-Chief Ilham Aliyev, and the ongoing fight against the pandemic in our country have already opened new opportunities for the development of this field. The rich nature of Karabakh economic region, mountains, valleys, nature reserves, etc. there is This means great potential for the development of various fields of tourism. One of the factors determining this potential is the great recreational importance of these areas.*

***Key words:*** *tourism, ecotourism, tourism potential, recreation, tourism resources.*

**М.А.Алиев**
*доцент, Азербайджанский Государственный Экономический Университет*
**Ф.Ф.Бабаев**
*магистрант, Азербайджанский Государственный Экономический Университет*

## Туристический потенциал Карабахского экономического района

### Резюме

*В представленной нами статье рассказывается о потенциале туризма в Карабахском экономическом районе. Это показывает, что Карабахский регион имеет большой потенциал для развития туризма, основанный на его богатой природе, флоре и фауне, а также древних исторических памятниках. Азыхская пещера, являющаяся одним из древнейших поселений в мире, древние каменные памятники, обнаруженные в горах и равнинах Карабаха - дольмены в Ходжалы, кромлехи в Ханкенди, исторические храмы, такие как Ганчесар (Ганзасар), Албан-Амарас, Елисей, Худавенг, Агоглан, имеют особенно широкие возможности для туризма.*

*Отечественная война, начавшаяся 27 сентября 2020 года и продолжавшаяся 44 дня, создала ряд трудностей в ненефтяном секторе, а также во многих районах нашей страны в период пандемии. В этот период у туристических компаний, как и у других секторов, были серьезные проблемы. Освобождение Карабаха от оккупации доблестью нашей славной армии под руководством Президента Азербайджана, Главнокомандующего Ильхама Алиева и продолжающаяся в нашей стране борьба с пандемией уже открыли новые возможности для развития этого поле. Богатая природа Карабахского экономического района, горы, долины, заповедники и т.д. есть Это означает большой потенциал для развития различных направлений туризма. Одним из факторов, определяющих этот потенциал, является большое рекреационное значение этих территорий.*

***Ключевые слова****: туризм, экотуризм, туристический потенциал, рекреация, туристские ресурсы.*